# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

**Azərbaycan Respublikasının**
**Təhsil Nazirliyinin**
**1048 saylı 03.10.2014-cü il**
**tarixli əmri ilə təsdiq edilmişdir**

# ALİ TƏHSİL PİLLƏSİNİN DÖVLƏT STANDARTI

## TİBB TƏHSİLİNİN ƏSAS TƏHSİL İXTİSASI ÜZRƏ TƏHSİL PROQRAMI

**İxtisasın (proqramın) şifri və adı: 070104 - Stomatologiya**

**BAKI – 2014**

**3.2.** İxtisas üzrə fənn bölümləri, fənlərin kreditləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq və vərdişlər baxımından) və qazanılması nəzərdə tutulan kompetensiyaların kodları

| Fənn bölümünün kodu | Fənn bölümləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq və vərdişlər baxımından) | Fənn bölmələri üzrə kreditlərin sayı | Fənlər | Fənlər üzrə kreditləri n sayı | Qazanılması nəzərdə tutulan kompetensiyala rın kodları |
|---|---|---|---|---|---|
| | | **Təhsil hissəsi** | | | |
| **HF – B00** | **Humanitar fənlər bölümü**<br>Bu bölümə daxil olan fənlərin öyrənilməsi nəticəsində həkim-stomatoloq<br>**bilməlidir:**<br>- Azərbaycan xalqının və dövlətinin tarixini, azadlıq, demokratiya və müstəqillik yolunda qazandığı nailiyyətləri;<br>- Azərbaycanın inkişaf tarixinin mərhələlərini, Azərbaycan dövlətinin dünya tarixində və müasir dünyada yerini və rolunu; ictimai və iqtisadi inkişafın, münasibətlərin, idarəetmənin qanun və qaydalarını;<br>- Azərbaycan ədəbi dilinin yazılı və şifahi formalarını, ədəbi tələffüz qaydalarını, xalqımızın görkəmli şəxsiyyətlərin, ədəbiyyatımızın klassiklərinin həyatını və onların əsas əsərlərini;<br>- dilimizdə ixtisasa aid mühüm terminləri;<br>- ixtisasa aid xarici dildə olan ədəbiyyatı oxuyub başa düşməyi;<br>- cəmiyyətin ümumi qanunauyğunluqlarını, hüquqi bilikləri;<br>**bacarmalıdır:**<br>- ünsiyyət qurmağı, tibbi ədəbiyyatı oxuyub təhlil etməyi;<br>- problemlərin fəlsəfi təhlilinin aparılmasını, bioetikanın forma və metodlarını, həkim-pasient və həkim-ictimai mühit əlaqələrinin qurulmasını;<br>- məntiqi təfəkkürü, sərbəst düşüncə tərzi olmalı, ictimai çıxışlar etmək, diskussiyalar aparmaq qabiliyyətinə malik olmalı; kollektivdə əlverişli psixoloji mikroiqlim yaratmağı.<br>**yiyələnməlidir:**<br>- Azərbaycan tarixindən vətənpərvərlik tərbiyəsində istifadə etmək vərdişlərinə;<br>- ixtisasa uyğun xarici dildə olan materiallardan istifadə etmək vərdişlərinə; | 30 | **HF–B01**<br>Azərbaycan tarixi<br><br>**HF–B02**<br>Xarici dil<br><br>**HF–B03**<br>Azərbaycan dili və nitq mədəniyyəti<br><br>**HF–B04**<br>Seçmə fənlər* | 6<br><br><br>13<br><br><br>5<br><br><br><br>6 | **ÜK-3**<br>**ÜK-4**<br>**ÜK-7**<br>**ÜK-10**<br>**ÜK-12**<br>**ÜK-13** |

| | | | | | |
|---|---|---|---|---|---|
| İPF – B00 | **İxtisas peşə hazırlığı fənləri bölümü**<br>Bu bölümə daxil olan fənlərin öyrənilməsi nəticəsində həkim-stomatoloq **bilməlidir:**<br>- biologiya ilə tibb elmlərinin qarşılıqlı əlaqəsini, ümumi və insan genetikasının əsaslarını, irsi materialların xromosom, gen və genom səviyyəsində təşkilini, tibbi və bioloji fizikanın elm kimi məqsədi və vəzifələrini, stomatologiya təhsilində onun rolunu, tibbi və bioloji fizikanın yaranma tarixini, inkişaf perspektivlərini, texniki vasitələrin tibb sahələrində tətbiqini, xəstəliklərin diaqnostikasını, bunların müalicəsində, bərpa və profilaktikasında istifadə olunan fiziki cihazları işlətməyi, tətbiqi fizikanın əsas xüsusiyyətlərini, onun tibbi problemlərin həllinə yönəldilmiş bölmələrinin təsnifatını, texniki vasitələrin: tibb cihazları, tibb elektronikası, iondaşıyıcı şüaların rolunu, bioloji fizikanın stomatologiya fakültəsinin tədrisində əhəmiyyətini; biofiziki və bioüzvi kimya fənlərinin predmet və vəzifələrini;<br>- fiziki-kimyəvi qanunauyğunluqları; kimyəvi elementlərin canlı orqanizmdə paylanmasını, liqandpatologiyasını, bioenergetikanı;<br>- termodinamikanı; məhlullar və onların fizioloji rolu, bioloji sistemlərin elektrokimyasını;<br>- fermentativ reaksiyalar və dispers sistemləri; bioloji fəal üzvi birləşmələr, tərkibi, quruluşu, funksiyaları və sintez üsullarını, anatomiyanın bölmələrini, öyrənilmə metodları və tarixini, anatomiya terminlərini, nomenklaturasını, orqanizmin xüsusiyyətlərini, hərəkət aparatı, osteologiya-sümük sistemini;<br>- artrologiya-birləşmələr sistemini, miologiya-əzələ sistemini, splanxnologiyada-xili üzvlər sistemini, həzm aparatı, tənəffüs sistemi, sidik-cinsiyyət sistemi, qan-damar və limfa sistemlərini, anatomiya elminin həkimlik təcrübəsində əhəmiyyətini;<br>- sitologiya, embriologiya və ümumi histologiya fənlərinin predmeti, metodları, vəzifələri və canlı aləmə xas olan ümumi bioloji qanunauyğunluqları, hüceyrənin təşkilində iştirak edən törəmələrin mikroskopik və submikroskopik quruluşu və onların funksiyalarının molekulyar əsasları haqqında müasir məlumatları, fərdi inkişafın prenatal (embrional və döl) və postnatal dövrlərində müxtəlif hüceyrə tiplərinin və toxumalarının formalaşma xüsusiyyətləri, variasiya və anomaliyalar haqqında məlumatları, toxumaların təsnifatı, quruluş xüsusiyyətləri və | 246 | **İPF-B01**<br>Tibbi biologiya və genetika | 3 | **ÜK-1**<br>**ÜK-2**<br>**ÜK-8**<br>**ÜK-9**<br>**ÜK-11**<br>**ÜK-12**<br>**PK-2**<br>**PK-3**<br>**PK-6**<br>**PK-7**<br>**PK-8**<br>**PK-9**<br>**PK-10** |
| | | | **İPF-B02**<br>Tibbi fizika və informatika | 5 | |
| | | | **İPF-B03**<br>Biofiziki və bioüzvi kimya | 4 | |
| | | | **İPF-B04**<br>İnsan anatomiyası | 8 | |
| | | | **İPF-B05**<br>Histologiya, embriologiya, sitologiya | 7 | |
| | | | **İPF-B06**<br>Latın dili və tibbi terminlərin əsasları | 4 | |
| | | | **İPF-B07**<br>Tibb tarixi | 2 | |
| | | | **İPF-B08**<br>Mikrobiologiya və immunologiya | 8 | |
| | | | **İPF-B09**<br>Biokimya<br>Biofizika | 8 | |
| | | | **İPF-B10**<br>Normal fiziologiya | 8 | |
| | | | **İPF-B11**<br>Patoloji anatomiya | 6 | |
| | | | **İPF-B12**<br>Patoloji fiziologiya | 6 | |
| | | | **İPF-B13**<br>Farmakologiya | 4 | |
| | | | **İPF-B14**<br>Ümumi gigiyena və hərbi gigiyena | 5 | |
| | | | **İPF-B15**<br>Operativ cərrahlıq və topoqrafik anatomiya | 3 | |
| | | | **İPF-B16**<br>Terapevtik stomatologiya | 16 | |
| | | | **İPF-B17**<br>Ortopedik stomatologiya | 16 | |

| | | | | |
|---|---|---|---|---|
| | orqanların təşkilində iştirak edən müxtəlif toxuma növləri arasında qarşılıqlı əlaqələrin ümumi qanunauyğunluqları və funksional əhəmiyyətini, xüsusi histologiya fənninin predmeti, metodları, vəzifələri, orqan və sistemlərin quruluş xüsusiyyətlərinin ümumi-bioloji qanunauyğun-luqlarını, fərdi inkişafın (ontogenezin) müxtəlif mərhələlərində orqan, sistem və aparatların formalaşma xüsusiyyətlərini, orqanizmin təşkilində iştirak edən orqanların mikroskopik, submikroskopik, immunhistokimyəvi və s. metodlar vasitəsi ilə sistemlər üzrə təsvirini, üzvlərin quruluş vahidlərinin histofiziologiyasını, ağız boşluğu üzvlərinin inkişafı, variant və anomaliyalarını, latın dilində leksik minimumu, latın dili morfologiyasını və sözdüzəltmə üsullarını; tibbin inkişaf qanunauyğunluqlarını, dünya görüşünü və həkim təfəkkürünün formalaşmasını;<br>- həkimin hüquq və vəzifələrini, cəmiyyətdə tutduğu yeri;mikroorqanizmlərin təsnifat prinsiplərini, mikroorqanizmlərin morfologiyası və onun öyrənilmə üsullarını, mikroorqanizmlərin metobolizmi, qidalanması, tənəffüsü və çoxalması, müxtəlif amillərin mikroorqanizmlərə təsirini, sterilizasiya və dezinfeksiya, kimyəvi terapevtik preparatlar və antibiotikləri, mikrobların antibiotiklərə həssaslığını təyin etməyi, infeksion prosesin formaları, mikroorqanizmlərin patogenliyi və virulentliyini təyin etməyi, orqanizmin immun sistemini, antigenləri, immun cavabın formalarını, anticisimlər, seroloji reaksiyalar və onların diaqnostikada tətbiqini, vaksinlər və immun zərdabları;<br>-yoluxucu xəstəliklərin mikrobioloji diaqnostikasının əsas prinsiplərini, patogen və şərti mikroorqanizmlərin morfo-bioloji xüsusiyyətlərini, törətdiyi xəstəliklərin patogenezini, mikrobioloji diaqnostikasını, spesifik profilaktikası və müalicəsi yollarını, irin törədən koklar, şərti patogen bakteriyalar, bağırsaq infeksiyalarının törədicilərini;<br>- patogen spiroxetlər, rikketsiyalar, xlamidiyalar, aktinomisetlər, göbələklər, ibtidailər, viruslar və onların patogenlik xüsusiyyətlərini, xəstəliklərin diaqnostikası, spesifik profilaktikası və müalicəsini, patoloji materialların götürülmə qaydaları və mikrobioloji müayinə üsullarını;<br>- tənəffüs, mədə-bağırsaq, sidik-cinsiyyət yolları, septik və xəstəxanadaxili infeksiyaların | **İPF-B18**<br>Ağız və üz-çənə cərrahiyyəsi | 12 | |
| | | **İPF-B19**<br>Uşaq stomatologiyası | 16 | |
| | | **İPF-B20**<br>İctimai sağlamlıq və səhiyyənin təşkili | 4 | |
| | | **İPF-B21**<br>Epidemiologiya | 2 | |
| | | **İPF-B22**<br>Ümumi cərrahiyyə | 3 | |
| | | **İPF-B23**<br>Şüa diaqnostikası və şüa terapiyası | 3 | |
| | | **İPF-B24**<br>Daxili xəstəliklərin propedevtikası | 3 | |
| | | **İPF-B25**<br>Dəri-zöhrəvi xəstəlikləri | 3 | |
| | | **İPF-B26**<br>Nevrolo-giya və tibbi genetika | 3 | |
| | | **İPF-B27**<br>Daxili xəstəliklər və intensiv terapiya | 6 | |
| | | **İPF-B28**<br>Qulaq, burun və boğaz xəstəlikləri | 3 | |
| | | **İPF-B29**<br>Cərrahi xəstəliklər, hərbi səhra cərrahiyyəsi | 5 | |
| | | **İPF-B30**<br>Yoluxucu xəstəliklər | 2 | |
| | | **İPF-B31**<br>Neyrocər rahiyyə | 3 | |
| | | **İPF-B32**<br>Mama-ginekologiya | 3 | |
| | | **İPF-B33**<br>Psixiatriya | 3 | |
| | | **İPF-B34**<br>Klinik farmakologiya | 2 | |
| | | **İPF-B35**<br>Ağciyər xəstəlikləri | 2 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | mikrobiologiyası və diaqnostika prinsiplərini;<br>- statik biokimyanın məqsəd və vəzifələrini, orqanizmin kimyəvi tərkibinə daxil olan əsas makromolekulların-zülalların, karbohidratların, lipidlərin, nuklein turşularının kimyəvi quruluşu və funksiyalarını. Bundan əlavə, bioloji kimyanın bu bölməsində həyat üçün vacib olan əsas bioloji aktiv maddələrin, yəni vitaminlərin ferment və hormonların kimyəvi quruluşu, bioloji təsir mexanizmlərinin əsas cəhətləri ətraflı surətdə əhatə edilmişdir, dinamik biokimyanın tədqiqat obyektinə insan orqanizmi tərəfindən mənimsənilən əsas qida maddələrinin-karbohidratların, zülalların, lipidlərin, nuklein turşularının metabolizminin öyrənilməsi daxildir, bioloji<br>kimyanın maddələr mübadiləsinin ümumi qanunauyğunluqlarını öyrənən sahəsi - katabolizm və anabolizm proseslərinin ümumi və spesifik hüceyrələrdə enerjinin əmələ gəlməsi və sərfedilmə yollarını, bir sözlə, bu maddələrin biokimyəvi çevrilmələrini və patoloji şəraitdə pozulmalarını araşdırmağı, müxtəlif orqan və toxumaların, xüsusilə sümük və diş toxumalarında gedən maddələr mübadiləsinin xüsusiyyətlərini, dinamik biokimyanın məqsəd və vəzifələrini;<br>- fiziologiya elmi, onun tədqiqat üsulları və məqsədlərini, qədim fiziologiyanın inkişafında görkəmli mütəfəkkirlərin xidmətlərini, fiziologiyanın əsas anlayışlarını, hüceyrə, toxumalar haqqında, qan, qan dövranı, tənəffüs, tənəffüs sistemi, həzm, həzm sistemi, maddələr və enerji mübadiləsi, temperaturun tənzimlənməsi, ifrazat, daxili sekresiya vəzləri, əzələ sistemi, sinir sistemi, fizioloji funksiyaların tənzimlənməsinin ümumi prinsiplərini, vegetativ sinir sisteminin ali sinir fəaliyyətini;<br>- patoloji anatomiya fənninin tədris edilməsi xəstəliklərin struktur əsasını, onların etiologiyası və patogenezini öyrənmək yolu ilə təbabətin nəzəri əsaslarının, klinikanın daha dərindən dərk edilməsinə, qazanılmış biliklərin hər bir həkimin fəaliyyətində istifadə olunmasına kömək etmək məqsədi daşıyır. Bu fənn xəstəliklərin quruluş əsasını öyrənir. İnsan orqanizmində xəstəliklərin əmələ gətirdiyi morfoloji dəyişiklikləri bilmədən xəstəliyin mahiyyəti, inkişaf mexanizmi, diaqnostikası və müalicəsi haqqında düzgün təsəvvür əldə etmək mümkün deyil. | | **İPF-B36**<br>Oftalmologiya<br><br>**İPF-B37**<br>Məhkəmə təbabəti<br><br>**İPF-B38**<br>Onkologiya<br><br>**İPF-B39**<br>Uşaq xəstəlikləri<br><br>**İPF-B40**<br>Müalicəvi bədən tərbiyəsi və həkim nəzarəti<br><br>**İPF-B41**<br>Mülki müdafiənin tibb xidməti<br><br>**İPFS – B00**<br>Seçmə fənlər<br>*(Peşə hazırlığı üzrə*)* | 2<br><br>2<br><br>2<br><br>3<br><br>2<br><br>3<br><br>41 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | - ümumi nozologiya, etiologiya (səbəb və şərait), patogenez (xəstəliyin inkişaf mexanizmi, gedişi və nəticəsi), sanogenez, sağlamlıq və xəstəlik anlayışlarını, xarici və daxili (irsiyyət, konstitusional xüsusiyyətləri, yaş və cinsiyyət) mühit amillərinin xəstəliklərin inkişafında rolu, orqanizmin reaktivliyinin patologiyada əhəmiyyəti anlayışını, tipik patoloji prosesləri (hüceyrə və mikrosirkulyasiya zədələnmələri, yerli qan dövranı pozulmaları, iltihab, qızdırma, infeksion proseslər, ekstremal vəziyyətlər, immun sistemin patologiyası, toxuma inkişafının patologiyası, hipoksiya və maddələr mübadiləsinin tipik pozulmaları) anlayışlarını; xüsusi patofiziologiya isə müxtəlif orqan və sistemlərin (qan, qan dövranı, tənəffüs, həzm və qaraciyər, böyrəklər, endokrin və sinir sistemləri) patoloji fiziologiyasını öyrənir (xəstəlik modelini yaratmaqla onun etiologiyası, patogenezi və eksperimental terapiya üsullarını mənimsəmək qaydalarını). Ağız boşluğu sərt və yumşaq toxumalarının patoloji proseslərinin əsas xüsusiyyətlərinin, diş-çənə aparatında spesifik zədələnmələrin etiologiyasının və patogenezininin, həmçinin ağız boşluğu və diş-çənə aparatı funksiyalarının pozulmasının orqanizmin digər sistemlərinin fəaliyyətinə təsiri mexanizmlərinin daha dərindən öyrənilməsi vacibdir;<br>- farmakologiya fənninin predmeti və vəzifəsi, tarixi, ümumi farmakologiyanın əsasları, reseptura haqqında, dərman vasitələrinin səmərəli istifadə olunması, dərmanlar haqqında məlumat, onların kimyəvi adları və stukturu, fiziki-kimyəvi xassələri, dərman vasitələrinin təsir mexanizmi, metabolizm haqqında, dərman vasitələrinin qəbuluna göstəriş, əks göstərişlərin öyrənilməsi, dərmanların sinonimləri, qəbul qaydaları, dozaları, dərman vasitələrinin müxtəlif farmakoloji qruplaşması, onların farmakoloji klassifikasiyası, saxlanma qaydaları, əczaxanalardan buraxılması haqqında məlumat. Xüsusi farmakologiyanı, psixotrop maddələri, neyrotrop maddələri, periferik sinir sisteminə təsir edən maddələri, ürək-damar sisteminə təsir edən maddələri, sidikqovucu maddələri, maddələr mübadiləsinə təsir edən vasitələr, antimikrob vasitələrini;<br>- ümumi gigiyenanın yaranma tarixi və inkişafını, gigiyena və insan, biosferinn quruluşunu, ekoloji sistemləri, orqanizm və mühitin qarşılıqlı münasibətlərini, ekologiya və insan sağlamlığı məsələlərini, ətraf mühitin qlobal | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | problemlərini, təbii ehtiyatlardan səmərəli istifadənin və təbiətin mühafizəsinin ekoloji prinsiplərini, təbiətdən istifadənin iqtisadi əsaslarını, ekoloji mühafizə texnikası və texnologiyasını, ekoloji hüququn əsaslarını, peşə məsuliyyəti anlayışını, ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlıq normalarını;<br>- operativ cərrahlıq və topoqrafik anatomiya fənninin predmet və vəzifələri: operativ cərrahlıq müasir anatomik və fizioloji biliklər əsasında patoloji prosesə uğramış orqanlarda cərrahi əməliyyatı yerinə yetirmək üçün səmərəli cərrahi müdaxilə yollarını, patoloji prosesin aradan qaldırılmasını, orqan və toxumaların pozulmuş funksiyasının yenidən bərpa olunmasını, cərrahi əməliyyatların, xüsusi cərrahi əməliyyatların gedişində baş verə biləcək taktiki səhvlərin qarşısını almaq və ağırlaşmaları aradan qaldırmaq üçün ayrı-ayrı üzvlərin topoqrafiyasını;<br>- ictimai sağlamlıq meyarlarını, bunlara təsir edən mühit kompleksini, tibbi demoqrafiya, reproduktiv sağlamlıq, əhali, tibb və səhiyyə haqqında nəzəri bilikləri, tibbi etika, bioetika və deontologiya, tibbi ekspertiza, sosial-gigiyenik problemləri; tibbi statistika, səhiyyə sistemləri, bunların təşkil edilməsinin forma və metodlarını, səhiyyədə proqnozlaşdırma, idarəetmə və iqtisadiyyat, marketinq, tibb idarələrinin quruluşu, qeyd-hesabat işləri və fəaliyyətinin təhlilini, səhiyyənin beynəlxalq problemlərini; beynəlxalq və dövlət sənədlərində sağlamlıq, tibb və səhiyyə məsələlərini, səhiyyə qanunvericiliyini;<br>- tibbi-statistik tədqiqatların aparılma metodologiyası, ictimai sağlamlığın və onu formalaşdıran amillərin öyrənilməsində parametrik və qeyri-parametrik statistik üsulların tətbiq edilməsi qaydalarını;<br>- səhiyyə sistemi və onun formalarını (dövlət, sığorta, özəl); səhiyyənin idarə olunması və menecmentini, idarəetmənin qanun və prinsiplərini, funksiyalarını, təşkilatı strukturunu, tipləri, idarəetmə üsulları və idarəetmə prosesini, onun keyfiyyət və səmərəliliyinin yüksəldilməsi yollarını; epidemioloji proseslər haqqında müddəaları, xəstəliyin tədqiqinə epidemioloji yanaşmanı, epidemioloji müayinə növlərini və onların təyinatını, epidemik prosesi, uşaq, yeniyetmə və yaşlı şəxslərdə qeyri-yoluxucu epidemiologiyanı, yoluxucu və parazitar xəstəliklərin epidemiologiyasını, əks-epidemik | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | tədbirləri həyata keçirməyi, xüsusi təhlükəli infeksiya mənbələrində, radiasiya fonunun pişləşməsi və təbii fəlakətlər zamanı əhalinin qorunması qaydalarını;<br>- ümumi cərrahiyyə kafedrasında stomatologiya fakültəsinin tələbələri qarşısında qoyulan əsas cərrahlıq məsələləri: cərrahlığın inkişaf tarixi, aseptika, antiseptika, yaralar, qanaxmalar, qanköçürmə, yanıqlar, zədələnmələr, cərrahi infeksiya, inkişaf qüsurları və s. haqqında məlumatlar verilir.<br>- rentgenoloji üsullar: kontakt-rentgenoqrafiya, tomoqrafiya, ortopan-tomoqrafiya, kompüter tomoqrafiya, nüvə-maqnit-rezonans tomoqrafiyası, USM, tomoqrafiya, radioizotop müayinələrini; müxtəlif xəstəliklərin diaqnostikası və bədxassəli şişlərin şüa müalicəsini;<br>- daxili xəstəliklərin etiologiyası, patogenezi, klinikası, müqayisəli diaqnostikası, müalicə və profilaktikasını; həkim stomatoloqlara daxili oqranların patologiyası zamanı ağız boşluğunda baş verən xəstəliklər onların klinik gedişat xüsusiyyətlərini də öyrədilir. Eyni zamanda, həkim stomatoloqlara daxili orqanların xəstəlikləri zamanı müşahidə olunan təcili və təxirəsalınmaz vəziyyətlə tanışlıq və mübarizə tədbirləri haqqında məlumat verilir;<br>- dermatologiya fənninin predmet və vəzifələri: dəri xəstəliklərinin (ayrı-ayrı nozologiyaların) etiologiyası, patogenezi, klinikası, diaqnostikası və müalicəsi, profilaktikası; dərinin peşə xəstəlikləri: diaqnostika, müalicə və profilaktikası; venerologiyanın predmeti və vəzifələrini: zöhrəvi xəstəliklərin (ayrı-ayrı nozologiyaların) etiologiyası, patogenezi, klinikası, diaqnostikası, müalicə və profilaktikası;<br>- nevrologiya fənninin tədrisi, məqsədi: nevroloji xəstələrin müayinə üsulları, diaqnostika və müalicə taktikasının seçilməsi; kəskin vəziyyətlər – beyin qan dövranı pozğunluqları, epileptik status, nevroloji ağrı sindromları, daxili orqanların xəstəlikləri zamanı sinir sisteminin zədələnmələri, vegetativ və periferik sinir sisteminin funksiya pozğunluqları;<br>- yuxarı tənəffüs yolları, qulağın anatomo-fizioloji xüsusiyyətləri və patologiyaları, profilaktikası, dispanserizasiyası və aradan qaldırılması, LOR xəstəliklərinin etiologiyası, patogenezi, klinikası, müalicəsi, müayinə üsullarını və ilk təcili yardım qaydaları; | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | - həzm sistemi üzvlərinin cərrahi patologiyası, qalxanvari və süd vəzi xəstəlikləri, ağciyər və plevra xəstəlikləri, magistral arteriya və venaların okluzion xəstəlikləri, onların etiologiyası, müayinə üsulları, müalicə və fəsadlarının profilaktikası;<br>- yoluxucu xəstəliklər fənninin məqsəd və vəzifələri: müasir səviyyədə infeksion proses, inkişaf mexanizmi, əsas xüsusiyyətləri, makroorqanizmin və mikroorqanizmin rolu, infeksion prosesin formaları, xəstəliklərin etioloji, epidemioloji, patogenetik xüsusiyyətləri, klinik gedişi, klinik formaları, diaqnostika və müalicə prinsipləri, diaqnostika və müalicə;<br>- neyrocərrahlıq fənni baş beyin vəsinir sistemi xəstəliklərinin cərrahi müalicəsini öyrənir. Bu xəstəliklərə baş-beyin və onurğa beyninin şişləri, travmatik zədələnmələri (kəllə-beyin, fəqərə sütununun onurğa beyni travmaları), baş-beyin-damar xəstəlikləri (anevrizm, insult), baş-beynin iltihabı və parazitar xəstəlikləri (abses, exinokok), anadangəlmə qüsurların cərrahi müalicəsi (hidrosefaliya, beyin-onurğa beyni yırtıqları, kraniostenoz), osteoxondrozların, epilepsiyanın, müxtəlif ağrıların cərrahi müalicəsi və s. aiddir.<br>- mama-ginekologiya fənni fizioloji hamiləlik zamanı qadın orqanizmində gedən anatomik-fizioloji dəyişikliklər, hamiləlik fəsadları, ginekoloji xəstəliklər, onların diaqnozlaşdırılması müalicə və profilaktikası; normal qadınların və hamilələrin gigiyenik rejimi, qidalanma, həyat şəraiti, əmək fəaliyyətinin sanitar normaları; doğum evləri, doğum şöbələri və digər doğuma yardım müəssisələrinin quruluşu və onların qarşısına qoyulan sanitar-gigiyenik tələblər;<br>- psixiatriya fənninin əsas məqsədi klinik tələbatın müstəqil bir bölməsi olmaqla yanaşı, eyni qaydada fəlsəfə, sosiologiya, psixologiya elmləri ilə sıx əlaqəli olaraq fənni keçən tələbələr üçün onun ümumi və xüsusi hissələrini tədris etməkdir;<br>- ümumi psixiatriya (və ya ümumi psixopatologiya) psixi xəstəliklərin əlamətləri, onların inkişaf xüsusiyyətləri, etiologiya və patogenezinin ümumi qanunauyğunluqları, müayinə metodlarından bəhs edir; xüsusi psixiatriya bölməsində müxtəlif nozoloji vahidlərə diqqət yetirilir; bundan əlavə, tələbələrə sosial psixiatriyanın əsas problemləri, psixiatriyanın başqa tibb elmləri ilə əlaqəsi və ictimai həyatda əhəmiyyəti izah edilir; | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | - klinik farmakologiyanın predmet kimi məqsədi, vəzifələri, funksiyaları, dərman vasitələrinin farmako-terapiyası haqqında məlumat: müasir farmakoterapiya üsulları, dərman vasitələrinin farmako-kinetikası, dərman vasitələrinin təsir mexanizmlərinin öyrənilməsi, qəbul qaydaları, dozalarının, vasitələrinin, əlavə effektlərinin öyrənilməsi; farmakodinamika haqqında məlumat: dərmanların müxtəlif farmakoterapevtik qruplara bölünməsi və onların farmakoloji təsirinin öyrənilməsi, dərmanların birgə təsiri və əks təsiri haqqında məlumat, müasir dərmanların təsnifatı;<br>- vərəmin epidemiologiyası, vərəm və digər ağciyər xəstəliklərinin diaqnostikasının prinsipləri, vərəm patogenezi və patomorfologiyası, ağciyər və digər orqanları, vərəminin klinik təsvir və fəsadları, digər xəstəliklərlə yanaşı gedən vərəmin diaqnostika və gedişatı xüsusiyyətləri, diferensial diaqnostikası, vərəmin kimyəvi preparatlarla müasir müalicəsi, simptomatik və ümumi möhkəmləndirici terapiyası, vərəmin cərrahi müalicəsi, xəstənin müayinəsinin xüsusiyyətləri, tənəffüs orqanlarının rentgenoloji müayinə metodları;<br>- oftalmologiya fənninin predmet və vəzifələri, görmə orqanının xəstəlikləri, onların etiopatogenezi, müalicəsi, profilaktikası, görmə orqanının zədələri, onların profilaktikası;<br>- məhkəmə təbabəti fənninin tədrisində əsas məqsəd tələbələrə məhkəmə təbabətinin nəzəri və təcrübi məsələlərini elə öyrətməkdir ki, onlar ilkin istintaq hərəkətlərində mütəxəssisin vəzifələrini lazımi səviyyədə müvəffəqiyyətlə yerinə yetirə bilsin, mexaniki travmalar və bəzi ekstremal vəziyyətlərdə (terminal vəziyyət, ölüm və meyitdə baş verən dəyişikliklər, zəhərləmə, mexaniki asfiksiya) patoloji proseslərin gedişinin morfoloji xüsusiyyətləri ilə, məhkəmə-tibbi ekspertizanın təşkili və hüquqi zərər vurmasına dair məsuliyyəti və peşə və peşə-vəzifə hüquq pozuntusu ilə tanış ola bilsinlər;<br>- terapevtik stomatologiyanın məqsəd və vəzifələri, ergonomika, stomatoloji alətlər (güzgülər, zondlar, stomatoloji pinset, hamarlayıcılar, ekskvatorlar, stopferlər, şpatellər, finirlər və s.), burğaclar (polad, almaz, konus şəkilli, şarvari, fissur, çarxvari və s.), plomb materialları (müvəqqəti, araqatlar, daimi), endodontiya, endodontik alətlər (pulpaekstraktor, kök burğusu, | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | drilburğac, dərinlikölçən, kök iynəsi, kanalgenişləndirici, stropfer, kanaldoldurucu və s.). qeyri-karies mənşəli xəstəliklər; hipoplaziya, flüoroz, patoloji sürtünmə, pazabənzər qüsur, eroziya, nekroz, zədələnmələr; klinika, diaqnostika, müalicə: dişlərin sərt toxumalarının kariyesi; etiologiyası, onların əhali arasında yayılma xüsusiyyətləri, klinik təzahürləri, diferensial diaqnostika, müalicə və profilaktik tədbirləri. Kariyesin fəsadlarını təşkil edən pulpanın və periodont toxumasının anatomo-topoqrafik xüsusiyyətləri; histologiya və fiziologiyası, iltihabi proseslərin etiologiyası, patogenezi, klinik xüsusiyyətləri, diaqnostikası və müalicəsi, · parodont, natomofizioloji xüsusiyyətləri, parodont xəstəlikləri, təsnifatı, xəstəliklərin müalicəsi, müayinə üsulları, parodontal indekslər, gingivit, parodontit, parodontoz və idiopatik xəstəliklərin klinikası, diferensial diaqnostikası, parodont xəstəliklərinin müalicəsi, ağız boşluğu selikli qişasının anatom-fizioloji xüsusiyyətləri; selikli qişa xəstəlikləri: stomatitlər, herpez, qırmızı yastı dəmrov, qırmızı qurd eşənəyi, çoxformalı eksudativ eritema, kandidoz, sifilis, virus infeksiyaları, leykoplagiya, ilkin və ikincili morfoloji elementlər; qovuq, qovuqcuq, düyüncük və s. selikli qişanın travması, medikamentoz intok- sikasiya, dermatozlar, sistem xəstəlikləri, patoloji dəyişikliklərin etiologiyası, klinikası, diferensial diaqnostikası, profilaktikası və müalicəsi. Dilin anatomiyası və xəstəlikləri, xeylitlər, klinikası və müalicə xüsusiyyətləri;<br>- ortopedik stomatologiya fənninin məqsəd və vəzifələri: stomatoloji yardımın təşkili, materialşünaslıq, avadanlıqlarla təchiz olunması. Diş-çənə sisteminin funksional anatomiyası, xəstələrin müayinə metodları, dişlərin yonulma qaydaları, ölçü materialları və ölçülərin götürülmə qaydaları; körpüvarı, hissə ilə çıxan və tam lövhəli protezlərin hazırlanması prinsipləri, klinik və laborator mərhələlər, diş tacı qüsurlarının müxtəlif növ qapaqlarla bərpası; diş sıralarının çıxmayan körpüvarı protezlərlə bərpası, diş sıralarının hissəvi qüsurlarının lövhəli hissəvi çıxan və bügel protezlərlə bərpası; tam dişsiz çənələrin protezlənməsinin klinik və laborator mərhələləri; parodontitlərin ortopedik müalicəsi; şinalar, taxmalar, ştifli dişlər; patoloji sürtünmə və deformasiyaların ortopedik müalicəsi, gicgah-çənə oynağının patologiyası; selikli qişa xəstəlikləri və diş-çənə | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | anomaliyaları zamanı ortopedik müalicə; mikrostomiya, diaqnostika üsulları, diş sıralarının hissəvi qüsurları; deontologiya qaydaları;<br>- cərrahi stomatologiyanın predmet və vəzifələri, dişlərin, ağız boşluğu, üz, boyun və üz skeleti sümüklərinin xəstəlikləri və zədələnmələri, onların kompleks müalicəsi; cərrah-stomatoloqun işinin təşkili, ağrısızlaşdırma və dişlərin çəkilməsi, göstəriş və əks göstərişlər; dişlərin, çənələrin, üz və boyun nahiyələrinin, ağız boşluğu orqanlarının iltihabi xəstəlikləri; odontogen iltihabi proseslər (kəskin və xroniki periodontit, kəskin periostit, osteomielit, üz-çənə nahiyəsinin abses və fleqmonaları, limfadenitlər), infeksion xəstəliklər-aktinomikoz, vərəm, sifilis, tüpürcək vəzlərin iltihabi xəstəlikləri;<br>- üz-çənə nahiyəsinin travmaları, üz-çənə nahiyəsinin odlu silah zədələnmələri, baş verən ağırlaşmalar, onların müalicə prinsipləri; üz-çənə sistemində olan şiş və şişəbənzər törəmələr, gicgah-çənə oyağının iltihabi və distrofik xəstəlikləri, üçlü və üz siniri xəstəlikləri, üz-çənə nahiyəsində plastik və bərpaedici əməliyyatlar; uşaq stomatologiyası fənninin predmet və vəzifələri: üz-çənə nahiyəsinin iltihabi xəstəlikləri, gedişatının xüsusiyyətləri və müalicə prinsipləri; pulpit, periodontit, odontogen, periostitlər, osteomielitlər, onların klinikası, diaqnostikası və müalicəsi, sifət sümüklərinin hematogen osteomielitləri, sifətin yumşaq toxumalarının iltihabi xəstəlikləri, tüpürcək vəzlərinin xəstəlikləri, odontogen kistalar, gicgah-çənə oynağı xəstəlikləri;<br>- ağız boşluğu selikli qişasının xəstəlikləri, parodontit xəstəlikləri, müalicəsi, üz-çənə nahiyəsinin zədələnmələri, yanıqlar, donmalar, mexaniki təsirdən dişlərin, çənələrin və üz sümüklərinin zədələnmələri, yumşaq toxumaların yaralanmaları;<br>- üz-çənə nahiyəsinin şiş xəstəlikləri, diaqnostikasının xüsusiyyətləri və müalicə prinsipləri, çənələrin, dişlərin inkişaf anomaliyalarının klinikası, diaqnostikası və müalicə prinsipləri, ortodontiya anlayışı, çənələrin və dişlərin inkişaf anomaliyalarının və deformasiyalarının təsnifatı, klinikası, profilaktikası və müalicəsi; ortodontik aparatların növləri; çənələrin və dişlərin anomaliyalarının cərrahi müalicəsinə göstərişlər: uşaqlarda çənələrin və diş sıralarının qüsurlarının protezlənməsinin xüsusiyyətləri:<br>- stomatoloji xəstəliklərin | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | profilaktikası;<br>- onkologiyanın inkişaf tarixi, bədxassəli şişlərin epidemiologiyası, Azərbaycanda epidemioloji xüsusiyyətləri. Baş və boyun nahiyəsi dərisinin və yumşaq toxuma şişləri, ağız boşluğunun şişləri, dodaqların xərçəngi, çənə və əng sümüyünün bədxassəli şişləri, tüpürcək vəzi şişləri, qalxanvarı vəzin şişləri, qırtlağın şişləri, boyunun orqandan kənar şişləri; pediatriyanın predmeti, inkişaf tarixi, uşaq yaşının dövrləri, müxtəlif uşaq yaşlarında xəstəliklərin xüsusiyyətləri və onların stomatoloji xəstəliklərin əmələ gəlməsində rolu, uşaqların sinir və fiziki inkişafı;<br>- yeni doğulmuşların xüsusiyyətləri, sağlam uşaqların qidalandırılma prinsipləri, təbii qidalanmanın üstünlükləri, onun uşaqlarda diş-çənə sisteminin formalaşmasında rolu;<br>- kəskin və xroniki qida pozğunluqları, diatezlər, spazmofiliya; raxit xəstəliyi və onun diş-çənə sisteminin inkişafına təsiri;<br>- tənəffüs sisteminin kəskin və xroniki xəstəlikləri: bronxit, pnevmoniyalar, anadangəlmə ürək qan-damar xəstəlikləri, revmatizm, kollagenozlar və pnevmoniyalar; anadangəlmə ürək qan-damar xəstəlikləri, revmatizm, kollagenozlar və onların diş-çənə sisteminə təsiri; qastritlər, mədə və onikibarmaq bağırsaq yarası; anemiyalar, leykozlar, hemorragik diatezlər və bu zaman stomatoloqun taktikası; nefrit, pielonefrit; uşaq yoluxucu xəstəlikləri: difteriya, suçiçəyi, qızılca, skarlatin, göy öskürək, məxmərək, epidemik parotit, virus hepatiti; profilaktik peyvəndlərin təqvimi; xroniki infeksiyaların uşaqlarda diş-çənə sistemi patologiyasının əmələ gəlməsində rolu.<br><br>**bacarmalıdır:**<br>- peşə fəaliyyətində tədris, elmi, elmi-kütləvi ədəbiyyatdan və internet şəbəkəsindən istifadə etməyi;<br>- fiziki, kimyəvi və bioloji avadanlıqlardan istifadə etməyi; böyüdücü texnika ilə işləməyi (mikroskop, optiki və sadə lupa);<br>- hüceyrənin orqanoidlərini, xüsusilə hüceyrələrin quruluşunu preparat üzrə ayırd etməyi, cinsiyyətin genetikasını, xromosom xəritələrini, insan irsiyyətinin öyrənilmə üsullarını, insan kariotipi-cinsi xromatinin təyin olunma üsullarını, heyvanların və insanın embrional və postnatal inkişaf qanunauyğunluqlarını preparat üzrə fərqləndirməyi, insanda parazitlik edən təkhüceyrəli və çoxhüceyrəlilərdən preparat hazırlamaq | | | | |

| | | | | |
|---|---|---|---|---|
| və mikroskopda təsvir etməyi, onurğalı heyvanların müqayisəli anatomiyasını-skelet hazırlamağı, genetik məsələləri həll etməyi və bu məqsədlə hesablama vasitələrindən istifadə etməyi, laboratoriya praktikumunda istifadə olunan tibbi cihazlarla işləməyi, modellərdən istifadə etməklə fiziki və bioloji proseslərin tədqiqində kompüter tətbiq etməyi, öz işlərində kompüter və onun imkanlarından geniş istifadə etməyi, elmi, statistik və diaqnostik məsələlər qoymaq və onları həll etməyi;<br>- laboratoriyada təhlükəsizlik qaydalarına əməl etməyi, kimyəvi qablarla, qızdırıcı və digər cihazlarla işləməyi, klinik analizlərin nəticələrini təhlil etmək üçün lazım olan təcrübi vərdişləri, tibbi laboratoriyalarda istifadə olunan bəzi elektrokimyəvi analiz üsullarından istifadə etməyi;<br>- orqanların tanınmasını, fərqləndirici xüsusiyyətlərini, orqanların yerləşdiyi nahiyəni, skeletoriyasını, sintopiyası, meyit və meyit preparatları ilə işləməyi, onlardan istifadə etməyi (kəsiklərin aparılması);<br>- hüceyrə və toxumaların histoloji kəsikləri ilə birlikdə elektronnoqramlarını tanımağı və təsvir etməyi, müxtəlif mikroskopik texnikaların işləmə prinsiplərini mənimsəməyi və işıq mikroskopunda sərbəst işləməyi;<br>- öyrənilən makroskopik, mikroskopik preparatlarda və elektronnoqramda morfoloji dəyişiklikləri təsvir etməyi;<br>- xəstədən götürüləcək patoloji materialların seçilməsi və götürülməsi qaydalarını, alınan laborator nəticələri interpretasiya etməklə müalicə korreksiyası aparmağı, infeksion xəstəliklərin spesifik profilaktikasını aparmağı;<br>- qanda zülalın, şəkərin, xolesterinin, kreatinin miqdarını təyin etməyi, indikator fermentlərin (ALT, AST və s.) aktivliyini müəyyən etməyi, sidikdə normal patoloji komponentləri təyin etməyi, qanda kalsiumun miqdarını təyin etməyi;<br>- sağlam orqanizmin funksiya-larının ən vacib tədqiqat üsulları prinsiplərini izah etməyi, müxtəlif fizioloji göstəricilərin konstant məlumat qiymətlərini şərh etməyi;<br>- bütöv orqanizmin və onu təşkil edən hüceyrə, toxuma, orqanlar, sistemlərin fəaliyyətinin tənzim mexanizmlərini izah etməyi, orqanizmin fizioloji funksiyasının<br>formalaşması və tənzimlənməsinin əsas qanunauyğunluqlarını qiymətləndirmək və izah etməyi, orqanizmin əsas | | | | |

funksional sistemlərinin quruluş prinsiplərini, fəaliyyətini və əhəmiyyətini qiymətləndirməyi və izah etməyi, orqanizmin əsas davranış aktlarının onun yaşama şəraitindən asılı olaraq formalaşması və tənzimlənməsi qanunauyğunluqlarını qiymətləndirmək və izah etməyi;

ümumbioloji proseslər zamanı üzv və toxumalardakı dəyişikliklərin makroskopik (vizual) və mikroskopik təsviri və qiymətləndirilməsini, patoloji proseslərin xarakteri ilə onların klinik təzahürlərinin əsaslandırılmasını, xəstəliklərin bütün inkişaf mərhələlərində morfoloji və klinik əlamətlərin müqayisəli analizini, müxtəlif xarakterli patoloji proseslər zamanı üzv toxumalardakı dəyişikliklərin makroskopik və mikroskopik təsviri və qiymətləndirilməsini;

-bir sıra xəstəliklərin və patoloji proseslərin modellərini laboratoriya heyvanlarında yaratmağı (iltihab parodontit, şok və s.), müxtəlif patoloji proseslər zamanı bioloji mayelərdə (sidik, qan, öd, mədə şirəsi və s.) biokimyəvi göstəriciləri tədqiq etməyi;

- eksperimental heyvanlar üzərində dərman maddələrinin törətdiyi effektləri müşahidə etmək üçün təcrübələr aparmağı;

- əsas diaqnostik allerqoloji sınaqların nəticələrini şərh etməyi;

-mikrobioloji və immunoloji diaqnostika aparmağı;

- ətraf mühit amillərinin təsiri ilə əhalinin sağlamlıq vəziyyəti və xəstələnmə göstəriciləri arasında səbəb-nəticə əlaqələrinin aşkar edilməsini, ətraf mühitin təbii və sosial amillərinin gigiyenik müayinələrinin nəticələrinin peşə hazırlığı mövqeyindən qiymətləndirilməsini, klinik müayinələrdə aşkar olunanpatoloji dəyişikliklərin xarici amillərin təsiri ilə əlaqələrinin müəyyən edilməsini, profilaktik, müalicə və pəhriz qidalanmasının tibbi-gigiyenik aspektlərinin təyini və təcrübədə tətbiq edilməsini, ətraf təbii mühitin müsbət təsirli amillərindən müalicə və reabilitasiya məqsədləri üçün istifadə edilməsini;

- patoloji proseslərin patogenezini, onların lokalizasiyasını, yayılmasını, simptom və sindromlarını, diaqnozun əsaslandırılması, xəstəliklərin müalicəsi və profilaktikası üçün topoqrafik anatomiya biliklərindən istifadə etməyi, daxili orqanların və damar-sinir dəstələrinin proyeksiyasının qurulması, müxtəlif müalicə manipulyasiyalarının və orqanlara

| | | | | |
|---|---|---|---|---|
| | operativ yolların icra edilməsi üçün xarici oriyentirlərdən istifadə etməyi, ümumi cərrahi alətlərdən və tikiş materiallarından istifadə etməklə biomodellər (anatomik materiallar) üzərində cərrahi texnikanın əsas elementlərini icra etməyi;<br>- müxtəlif orqan və sistemlərin, xoş və bədxassəli şişlərin erkən diaqnostikasını, müxtəlif diaqnostik üsulların və laborator- instrumental üsullarının tətbiqini, onkoloji xəstəlikləri başqa xəstəliklərdən diferensial diaqnostikasını aparmağı;<br>- ictimai sağlamlığın obyektiv qiymətləndirilməsi və ona təsir edən amillərin müəyyənləşdirilməsi üçün informasiya toplamağı, sosioloji, sosial-gigiyenik, ekspert qiymətləndirməsini, büdcə tədqiqat, iqtisadi, riyazi, riyazi modelləşdirmə və əhalinin sağlamlıq vəziyyətini qiymətləndirməyi, ona təsir edən risk amillərini öyrənilməsi üçün zəruri olan, başqa tədqiqat üsullarını tətbiq etməyi;<br>- profilaktik, gigiyenik və əks-epidemik tədbirləri həyata keçirməyi;<br>- yoluxucu xəstəlik ocağında epidemioloji araşdırma aparmağı, çevik, retrospektiv və prospektiv təhlilin köməyi ilə səbəb-nəticə münasibətlərini təyin etməyi, aktual xəstəliklərə qarşı əks-epidemik tədbir planlarının hazırlanmasını, hərbi hissədə dezinfeksiya, deratizasiya işləri, peyvəndləmə və təcili profilaktika tədbirləri təşkil etməyi, hərbi hissənin yerləşdiyi və ya əməliyyat apardığı rayonun sanitar-epidemioloji vəziyyətini qiymətləndirilməyi və bu əsasda şəxsi heyətin əks-epidemik və bakterioloji silah əleyhinə müdafiə tədbirlərini işləməyi, bakterioloji vasitələrin indikasiyası üçün zəruri olan ilkin tədbirlər görməyi;<br>- aseptika, antiseptika tədbirlərini, ağrısızlaşdırma, qanköçürmə, sarğıların qoyulması, travmaların, cərrahi infeksiyaların, damar və parazitar xəstəliklərin, şişlərin, inkişaf qüsurlarının diaqnozunu qoymağı və yardım etməyi;<br>- şüa diaqnostik müayinə metodlarını məqsədyönlü şəkildə seçilmə ardıcıllığını təyin etməyi və müayinənin növünü seçməyi, şüa diaqnostik metodların aparılmasına göstəriş və əks göstərişləri təyin etməyi, şüa diaqnostik müayinələrə hazırlıq tədbirləri aparmağı;<br>- müayinə edilən orqanın şüa diaqnostik təsvirini qavramağı, şüa diaqnostik müayinənin nəticələrinin protokolunu analiz etməyi;<br>- rentgenoloji müayinəyə əsasən sınıq və çıxıqları təyin etməyi; xəstələrlə | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | davranış qaydalarını (deontologiyanı), sorğuların düzgün aparılmasını, fizikal müayinə üsullarını (vizual müayinə, palpasiya, perkussiya, auskultasiya), laborator instrumental müayinə nəticələrinin interpretasiyasını;<br>- patoloji materiallardan (tüpürcək, selikli qişa, pulcuqlar, ifrazatlar, serum, qan və s.) və mikrob kulturasından yaxmaların hazırlanmasını, ağız boşluğundan materialın götürülməsi və müayinəsini;<br>- kəllə sinirlərinin, hərəki sistemin, hissiyyatın, vegetativ və periferik sinir sistemlərinin müayinəsini;<br>- klinik diaqnozu təyin etməyi; vəziyyətdən asılı olaraq xəstəni müalicə etmək üçün fərdi yardım növü seçməyi; ilkin yardım, təcili və təxirəsalınmaz yardım, xəstəxanaya yerləşdirmək;<br>- çox yayılmış xəstəliklərin patogenetik terapiya prinsiplərini əsaslandırmağı;<br>- tibbi təxliyə mərhələlərində təxirəsalınmaz yardım tədbirlərini lazımi həcmdə və effektli şəkildə göstərməyi, dinc və müharibə dövrlərində terapevtik profilli xəstələrin erkən diaqnostikasını, müalicə və profilaktikasını zəruri həcmdə və keyfiyyətdə aparmağı, kütləvi qırğın, odlu və digər silahların tətdiqi nəticəsində meydana çıxan, eləcə də xidmət şəraitinin zərərli faktorlarının təsirindən törəyə biləcək xəstəliklərin vaxtında profilaktikasını, erkən diaqnostikası və müalicəsini aparmağı;<br>- LOR orqanlarının endoskopik müayinə metodlarını, LOR- orqanlarının funksiyasının yoxlanmasını, eşitmənin müasir yoxlama metodlarını (tonal, nitq audiometriyası, otoakustik emissiya, BERA), protezləşdirilməsini;<br>- venapunksiya və ya venaseksiya ilə qanın və qanəvəzedicilərin köçürülməsini, döş qəfəsi, qarın boşluğunu, sidik kisəsini punksiya etmək, cərrahi xəstəliklərə funksional müayinə metodlarını tətbiq etməyə, səthi irinliklərdə (abses, furunkul, karbunkul, hidradenit, dolamalarda) kəsiklər aparmağı, yaradan qanaxmaları dayandırmağı, yaraların ilkin cərrahi işlənməsini, əməliyyatdan sonrakı dövrdə tikişləri çıxarmağı;<br>- uşaqlar, yeniyetmə və yaşlı şəxslərdə yoluxucu xəstəliklərin klinik müayinəsini, ilkin diaqnoz qoyulmasını, xəstəliklərin müayinə planını tərtib etməyi, laborator müayinə nəticələrini (klinik, bakterioloji, seroloji və s.) qiymətləndirməyi, təxirəsalınmaz vəziyyətlər, ağırlaşmaların baş verməsini müəyyənləşdirməyi, hospitalizasiyaya qədərki və hospitalizasiya mərhələsində | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | lazımi tibbi yardım göstərməyi, müxtəlif müayinələr aparmaq üçün xəstədən materialların (qan, sidik, qusuntu kütləsi və s.) götürülməsini həyata keçirməyi, dəri-allergik sınaqlar aparmağı, qalın damla və qan yaxması hazırlamağı;<br>- hamiləliyin müddətini təyin etməyi, doğuş güman edilən müddəti təyin etməyi, doğuş zamanı daxili bimanual müayinə aparmağı, ginekoloji güzgülərlə müayinəni, daxili bimanual müayinəni;<br>- fizioloji hamiləliyi aparmağı; - hamilələrə tibbi yardım göstərməyi;<br>- ünsiyyət və müşahidə zamanı pasientin davranış xüsusiyyətlərini, xarici görünüşünü, ifadələrini təhlil etməyi, farmakoloji fonda keçiriləcək reabilitasiyanı;<br>- xəstələrin dərman anamnezinin dəqiq toplanmasını, xəstəliklərin düzgün müalicə üsullarını seçməyi və digər patoloji proseslərin effektiv farmako-terapiyasını saxlamaqla yanaşı ağırlaşmaların sayını imkan daxilində minimuma endirməyi;<br>- vərəmin hər hansı bir klinik formasına . diaqnozun qoyulmasını subyektiv və obyektiv, klinik, rentgenoloji, laborator müayinələr əsasında təyin etməyi, vərəm mikrobakteriyalarının dərmanlara qarşı növləri, onların müalicə sxemində nəzərə alınmasını;<br>- hadisə yerinə baxış keçirməyi və hadisə yerinin müayinə protokolunun tərtibində müstəntiqə kömək göstərməyi, məhkəmə təbabətində qəbul olunmuş sxemə uyğun olaraq mexaniki xəsarətləri təsvir etməyi, meyitin məhkəmə-tibbi müayinəsinin texnikasını, laborator müayinələri aparmaq üçün orqanları və ya onların hissələrini götürməyi, canlı şəxslərin məhkəmə-tibbi müayinəsini aparmağı;<br>- sağlam və xəstə uşaqların ümumi müayinəsini, onların fiziki və sinir-psixi inkişafını qiymətləndirməyi, müayinələr əsasında diaqnoz qoymağı və xəstə uşağın müalicə planı və taktikasını hazırlamağı, müasir metodların tətbiqi və uşaq xəstəliklərinin prfilaktikasını, kəskin ürək və tənəffüs çatışmazlığı, allergik reaksiya hallarında təxirəsalınmaz yardım göstərməyi, sağlam və xəstə uşaqlara qulluq və dispanser müşahidəni təşkil etmək və bunları həyata keçirməyi, müalicəvi bədən tərbiyəsini təyin və tətbiq etməyi;<br>- ölüm haqqında tibbi şəhadətnaməni doldurmağı.<br><br>**yiyələnməlidir:**<br>-histoloji preparatların təhlilinə, mikroskopla işləmək və elektron | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | mikrofotoşəkil çəkmək bacarığına;<br>- sadə tibbi alətlərlə (fonendoskop, şpatel, nevroloji çəkic, skalpel, pinset, zond, genişləndirici, sıxıcı və s.) işləmək bacarığına;<br>- bioloji maddələrin biokimyəvi tədqiqatlarının nəticəsinə əsasən ilkin diaqnoz qoymaq bacarığına;<br>- ilkin immunoloji diaqnoz qoymağı və sonradan həkim immunoloqa göndərməyi;<br>- təxirəsalınmaz hallar və həyat təhlükəsi olan vəziyyətlər zamanı ilkin tibbi yardım göstərilmək üçün əsas diaqnostik və müalicə tədbirlərinə;<br>- xəstəliklərin morfoloji və klinik göstəricilərini müqayisə etmə bacarığına;<br>- insanlarda irsiyyətin öyrənilməsi metodlarına (sitogenetik metod, genealoji metod və s.);<br>- müxtəlif xəstəliklər və patoloji vəziyyətlər zamanı müalicə, reabilitasiya və profilaktika üçün dərman maddələrini təyin etmək bacarığına;<br>- təşrihin, klinik-anatomik təhlili metodlarına, biopsiya və cərrahi əməliyyat materiallarını tədqiqinə;<br>- tibbi sənədləri düzgün tərtib etmək bacarığına;<br>- ictimai sağlamlığın vəziyyətini qiymətləndirmək bacarığına;<br>- ümumi klinik müayinə metodlarına;<br>- laborator, instrumental və diaqnostika metodlarının nəticələrini düzgün şərh etmək bacarığına; klini diaqnozun düzgün qoyulması alqoritminə;<br>- ilkin diaqnozun qoyulması və sonradan xəstəni müvafiq həkim-mütəxəssisə göndərilməsi alqoritminə;<br>- tibbi statistik göstəricilərin hesablanma metodikasına, səhiyyənin iqtisadi artım dərəcəsini xarakterizə edən göstəriciləri təhlil etmək bacarığına;<br>- təxirəsalınmaz hallar və həyat təhlükəsi olan vəziyyətlər zamanı ilkin tibbi yardımın göstərilməsi üçün əsas diaqnostik və müalicə tədbirləri görmək bacarığına;<br>hadisə yerinə baxış keçirən zaman ölümün baş verməsini və müddətini təyin etmək, meyitlərin məhkəmə-tibbi ekspertizası zamanı diaqnozları tərtibi etmək və nəticələri əsaslandırmaq, sağlamlığa zərərvurmanın dərəcəsini təyin etmək bacarığına. | | | | |
| **TE-B00** | **Təcrübələr və yekun attestasiya**<br>Bu bölümə aid olanların öyrənilməsi nəticəsində təhsil alan **bilməlidir:**<br>- əhaliyə stomatoloji xidmətin təşkili, üz-çənə nahiyəsinin anatomik-topoqrafik xüsusiyyətlərini, fiziologiyasını, stomatoloji xəstəliklərin etiologiyasını, | 24 | **TE-B01**<br>Təcrübələr<br><br>**TE-B02**<br>Yekun dövlət attestasiyası | 15<br><br><br>9 | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-6**<br>**PK-7** |

| | | | | |
|---|---|---|---|---|
| patogenezini, klinik xüsusiyyətlərini, bu xəstəliklərin diaqnostikasını, diferensial diaqnostikası, profilaktikası və müalicə üsullarını;<br><br>**bacarmalıdır:**<br>- stomatoloji xəstəliklərin profilaktika tədbirlərinin həyata keçirilməsini, karies xəstəliyi və onun fəsadları, parodont toxuması xəstəliklərini, üz-çənə nahiyəsinin travmalarının, iltihabi xəstəlikləri, şiş xəstəliklərinin diş-çənə anomaliyalarının, diş sırası qüsurlarının, ağız boşluğu selikli qişa xəstəliklərinin diaqnostikasını və müalicə tədbirlərini;<br><br>**yiyələnməlidir:**<br>stomatoloji xəstəliklərin profilaktikasına, karies, parodont və ağız boşluğu selikli qişa xəstəliklərinin müalicəsinə, cərrahi stomatoloji yardım göstərilmək vərdişlərinə, diş sırası qüsurlarının ortopedik müalicə prinsiplərinə, diş-çənə anomiyalarının (anomaliyalarının) müalicə üsullarına. | | | | **PK-8**<br>**PK-9**<br>**PK-10**<br>**PK-11** |
| **Kreditlərin ümumi cəmi:** | **300** | | | |

***Bütün bölümlərdə seçmə fənlər müvafiq səriştələrə (kompetensiyalara) uyğun ali təhsil müəssisələri tərəfindən müəyyənləşdirilir.*

**3.3.** **070104 - Stomatologiya** ixtisası üzrə tibb təhsili proqramının yerinə yetirilməsinin müddəti:

Tibb təhsili proqramını mənimsəmək üçün ayrılan ümumi həftələr - 250
Nəzəri təlim, o cümlədən təcrübələr (10 həftə) üçün ayrılan həftələr - 194
Tətillər üçün ayrılan həftələr - 50
Yekun attestasiyaya ayrılan həftələr - 6

## 4. Maddi-texniki, tədris bazası və kadr potensialı

**4.1.** Ali təhsil müəssisəsinin **070104 - Stomatologiya** ixtisasının təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar, kompüter sinifləri, emalatxanalar və s. ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır. Təhsil alanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalarına, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

**4.2.** Fənlərin tədrisi, bir qayda olaraq, ali təhsil müəssisələrinin elmi dərəcəsi və ya elmi adı olan professor-müəllim heyəti tərəfindən aparılır. Bu fəaliyyətə həmin şərtləri ödəyən digər müəssisə və təşkilatlarda çalışan şəxslər də cəlb oluna bilər.

## 5. Tədris prosesinin forma və metodları

**5.1.** Tibb təhsili hazırlığında mühazirə, məşğələ (kliniki və laboratoriya), seminar, məsləhət, sərbəst iş, təcrübə və s. formalarda həyata keçirilir..

**5.2.** Tibb təhsili hazırlığı üzrə tədris prosesində şifahi şərh, müsahibə, interaktiv təlim, müstəqil iş, diskussiya, dəyirmi masa, illüstrasiya, tədqiqatçılıq, laboratoriya və praktik iş və digər metodlardan istifadə edilə bilər.

**5.3.** **070104 - Stomatologiya** ixtisası üzrə tibb təhsili hazırlığında istehsalat və pedaqoji təcrübələr nəzərdə tutulur (təcrübələrin məqsəd və vəzifələri ixtisasdan asılı olaraq müəyyənləşdirilir). Təcrübələr növündən asılı olaraq, müvafiq idarə və təşkilatlarda, məktəblərdə və s. keçirilə bilər.